Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

**Embassy of Switzerland to the Republic of Azerbaijan and Turkmenistan**

Biznes

## Viza məlumat vərəqəsi
Tələb edilən sənədlər

□ Tam şəkildə doldurulmuş və ərizəçi tərəfindən şəxsən imzalanmış ərizə forması.

□ Etibarlı pasportun orijinalı və surəti (1-ci, 2-ci və viza və ya möhür olan bütün səhifələrin sürəti).Pasport planlaşdırılmış qalma müddətindən azı 3 ay müddətinə etibarlı və son 10 ildə çap olunmalıdır.

□ Yaxın vaxtlarda çəkilmiş 2 ədəd ağ fonda fotoşəkil (veb-saytda izahata baxın).

□ İsveçrəyə səyyahətinizi təsdiq edən dəlillər/sənədlər: (öncədən ödənilmiş mehmanxana rezervasiyası, nəqliyyat vasitəsi, sifariş edilən səyyahət turu, səyyahət müddəti və s.)

□ Bütün Şengen ölkələrində və bütün səyyahət müddətində etibarlı olan ən azı 30 000 Avro və ya 50 000 ABŞ dolları miqdarında səyyahət sığortası.

□ Ilk dəfə edilən müraciət olduğu təqdirdə ərizəçinin nikah və doğum haqqında haqda şəhadətnaməsinin orijinalı və surəti (İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə)

□ Özündə aşağıdakı məlumatları ehtiva edən İsveçrədən dəvətnamə məktubu:
- Ərizəçini İsveçrədə qəbul edəcək şirkətin əlaqə məlumatları (adı, ünvanı, elektron poçtu və telefon nömrələri)
- Dəvət edilən şəxsin adı, doğum tarixi və vəzifəsi
- İsveçrəyə səfərin/keçiriləcək görüşün məqsədi
- İsveçrədə qalacağı yer və müddət
- Qalma müddətində bütün xərclərin İsveçrə şirkəti tərəfindən ödənliməsi haqda təsdiq (olduğu təqdirdə).
- Imzalar Isveçrə Ticarət Registrinə uyğun olmalıdır.

*Dəvətnamə faks və ya e-meyl vasitəsilə öncədən Səfirliyə göndərilməlidir.*

□ İş yerindən məşğulluğuq haqqında aşağıdakı məlumatları özündə ehtiva edən arayış (İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə):
- Şirkətin adı və əlaqə məlumatları (ünvanı, elekton poçtu və telefon nömrələri )
- Aylıq məvacib, işə götürülən vaxt, şirkətdə tutduğu vəzifə
- İsveçrəyə səfərin məqsədi, qalma müddəti
- Qalma müddətində bütün xərclərin yerli şirkət tərəfindən ödənliməsi haqda təsdiq (olduğu təqdirdə).

*Şirkət sahibi və ya azad işçi (muzdlu işçi) yuxarıda qeyd edilən təsdiqedici sənəd əvəzinə dövlət qeydiyyatı sənədini təqdim etməlidir.*

□ Viza işləmələri üçün rüsum (Bax viza rüsumu bölməsinə). Viza üçün rüsum yalnız AZN-lə ödənilir.

*Sənədlərə ilkin baxış keçirdikdən sonra, Səfirlik lazım gəldikdə əlavə sənədlərin tələb edilməsi hüququnu özündə saxlayır.*

*Ərizə forması və əlavə sənədlər ərizəçi tərəfindən Səfirliyə ərizəçi tərəfində Bazar ertəsindən Cümə axşamına qədərç saat 09.00-dan 12.00-a qədər **şəxsən** təqdim edilməlidi. 12 yaşa qədər uşaqların görüş təyin etməsi tələb olunmur. 10 və daha artıq nəfərlik qrup səfilriklə əlaqə saxlamalıdı. Nəzərə alın ki, **viza üçün ərizə ancaq bütün lazımi sənədlər tam şəkildə təqdim edildikdə qəbul olunur. Sənədlərə baxılma müddəti ərizənin tam şəkildə qəbul olunduğu gündən etibarən 10 iş günüdür. Sənədlər planlaşdırılan səfər tarixindən ən azı 15 gün öncə təqdim edilməlidir.***

*Növbə www.swiss-visa.ch saytı vasitəsi ilə təyin edilir. Həmin sayt vasitəsi ilə ərizə formasının qeydiyyatı da mümkündür.*

*Səfirlik heç bir **kənar** qurum və ya xidmət göstərən təşkilatlarla əməkdaşlıq etmir.*



Viza şöbəsinin iş vaxtı: Bazar Ertəsi-Cümə Axşamı 09.30-11.30
Böyük Qala 9, İçəri, Şəhər
AZ-1004 Baku / Azərbaycan
Telephone: +994 12 437 38 50, Fax: +994 12 437 38 51
bku.visa@eda.admin.ch, www.eda.admin.ch/baku